# «Heydər Əliyev. Müstəqilliyimiz əbədidir» çoxcildliyinin 46-cı cildi çapdan çıxmışdır

Ümummilli lider «Heydər Əliyev. Müstəqilliyimiz əbədidir» çoxcildliyinin sonuncu-46-cı cildi çapdan çıxmışdır.

AzərTAc xəbər verir ki, nəfis tərtibatda çap edilmiş sonuncu cilddə bundan əvvəl nəşr olunmuş 45 cilddə verilmiş ad və coğrafi göstəricilərlə bağlı məlumatlar əlifba sırası ilə öz əksini tapmışdır.

Nəşrin buraxılışına məsul Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevdir.

Ümumilikdə 46 kitabdan ibarət olan «Heydər Əliyev. Müstəqilliyimiz əbədidir» çoxcildliyində ulu öndərin tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi doğma vətəni—Azərbaycanın daha da yüksəlişinə və çiçəklənməsinə dair materiallar toplanmışdır.

Kitablarda ulu öndərin Azərbaycanın ölkədaxili siyasətinə, beynəlxalq əlaqələrinə və münasibətlərinə dair çıxışları, nitqləri, Azərbaycana gələn müxtəlif dövlətlərin başçıları, digər dövlət və hökumət nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri, ictimai-siyasi xadimlərlə görüşləri, dərin məzmunlu söhbətləri, apardığı danışıqlar öz əksini tapmışdır.

Kitablarda ulu öndərin dünyanın müxtəlif ölkələrinə rəsmi və işgüzar səfərləri zamanı vəzifəli şəxslərlə görüşlərdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, beynəlxalq terrorizmə qarşı birgə mübarizə, Xəzərin karbohidrogen ehtiyyatlarının işlənməsi və nəqli ilə bağlı məsələlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli və digər məsələlərə dair materiallar, beynəlxalq konfranslardakı nitqləri, mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələri toplanmışdır.

Bu nəşrlərdə ümummilli lider Heydər Əliyevin ayrı-ayrı hökumət və dövlət başçılarına, eyni zamanda, ölkəmizin tanınmış ədəbiyyat, elm, təhsil, incəsənət, mətbuat işçilərinə, ictimai-siyasi təşkilatlara ünvanladığı çoxsaylı məktubları, teleqramları və sənədlər də yer almışdır.

«Azərnəşr» tərəfindən çap olunan çoxcildliyin hazırlanmasında Azərbaycan Teleqraf Agentliyinin AzərTAc materiallarından istifadə edilmişdir.

Nəfis tərtibatla hazırlanmış əvvəlki nəşrlər, eləcə də 46-cı kitab ulu öndər Heydər Əliyev irsinin tədqiqatçıları, alimlər, politoloqlar, siyasətçilər, ictimai xadimlər, həmçinin gənc araşdırıcılar üçün əvəzsiz mənbədir.

## Ünvanlı sosial yardımların təminatı və ödənilməsində şəffaflığın təmin olunmasına dair brifinq

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin rəisi Çingiz Əliyev ünvanlı dövlət sosial yardımların təminatı və ödənişində şəffaflığın təmin olunması ilə bağlı kütləvi informasiya vasitələri (KİV) nümayəndələri üçün brifinq keçirmişdir. Brifinqdə bildirilmişdir ki, sözü gedən məsələ üzrə nazirliyin yeni rəhbərliyi mövcud nöqsanların aradan qaldırılması və bu istiqamətdə şəffaflığın təmin olunması üçün müvafiq tədbirlər həyata keçirməkdədir. Qeyd olunmuşdur ki, bu tədbirlərin həyata keçirilməsi və effektiv nəticə verməsi üçün vətəndaşların da daha fəal olması vacibdir. Brifinqdə qeyd olunmuşdur ki, 134 mindən çox ailəyə KİV vasitəsi ilə müraciət edərək bildirilmişdir ki, təyin olunmuş yardımların alınması üçün onlara banklar tərəfindən verilmiş plastik kartları heç bir halda mərkəz əməkdaşlarına verməsinlər.

Vətəndaşlar da əhalinin sosial müdafiəsi mərkəzlərində yardım təyinatı müqabilində hər hansı qanunsuz "Sövdələşmələrə" getməməli və belə hallarla üzləşdikdə nazirliyin 142 qaynar xəttinə yaxud (012) 595 53 81, (012) 595 04 26 nömrəli telefonlara müraciət edə bilərlər.

## Neft Daşları–Əfsanəvi şəhərin 64-cü ili

Noyabr ayının 7-də dünyada ilk dəniz nefti erasının başlanmasından 64 il keçdi. 1948-ci ildə 23 nəfərdən ibarət ilk dəniz neftçiləri dəstəsi Neft Daşlarında birinci neft quyusunun kəşfiyyatına başlamışdır. 1949-cu ilin noyabr ayının 7-də burada ilk quyu fontan vurmuşdur. Sonrakı illərdə Neft Daşlarında böyük tikinti və quruculuq işləri aparılmışdır. İndi Neft Daşlarını "Əfsanəvi şəhər", "Möcüzələr adası" adlandırırlar.

# Sanitar-epidemioloji tədbirlərə diqqət artırılır

Rayon gigiyena və epidemiologiya mərkəzi son illər yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar-profilaktiki tədbirlərin həyata keçirilməsi işinə diqqəti xeyli artırmışdır. Tərəfimizdən hər ilin əvvəlindən bu məqsədlə tədbirlər planı hazırlanır, planın icrasına nəzarət olunur. Kompleks tədbirlər əsasında aparılan mübarizə yoluxucu və parazit xəstəliklərin qarşısının alınmasında müsbət nəticəsini vermişdir. Təqdirəlayiq haldır ki, vəba və xüsusi təhlükəli yoluxucu xəstəliklərin rayon ərazisinə gətirilməsi və yayılmasının qarşısı tərəfimizdən alınmışdır. Bu xəstəliklərin ən təhlükəliləri həm insan, həm də heyvanlar üçün quduzluq, qarayara, qrip, vərəm və başqa kəskin respirator xəstəlikləri sayılır.

2013-cü ilin doqquz ayı ərzində profilaktik peyvəndlərdən maksimum dərəcədə istifadə etmişik. Profilaktik peyvəndlərdən hepatit B-yə qarşı 1405 nəfərə, göy öskürək, difteriya və tetanusa qarşı 1236 nəfərə, qızılca, parotit, məxmərəyə qarşı 2487 nəfərə, polimelitə qarşı 5968 nəfərə, 6 yaşlı uşaqlar arasında difteriya və tetanus əleyhinə 1181 nəfərə, doğumun 4—7-ci günündə BSJ peyvəndinə qarşı 1454 və HİP vaksini 3551 nəfərə peyvənd edilmişdir. Profilaktik peyvəndlərin keyfiyyətli aparılması məqsədilə hər ayın 14—15-ci günlərində vahid peyvəndləşmə günü keçirilir. Həmin günlərdə peyvənd materialları soyuq zəncir prinsipi əsasında müalicə-profilaktika müəssisələrinə çatdırılır.

Aparılmış profilaktiki tədbirlərin nəticəsidir ki, son 10 il ərzində difteriya, göy öskürək, tetanus, qızılca, parotit, məxmərək kimi yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Rayon üzrə yeni doğulan bütün uşaqların vərəm əleyhinə BSJ peyvəndinə cəlb edilməsi üçün 2050 doza peyvənd materialı alınıb müalicə-profilaktika müəssisələrinə verilmişdir. Yeni doğulanlardan 45 uşaqda əks göstəriş olduğuna görə doğum evində BSJ-yə cəlb edilməmişdir. Onların BSJ-yə cəlb edilməsi nəzarətdə saxlanılır.

2013-cü ilin müvafiq dövründə rayonun yaşayış məntəqələri üzrə parazitar xəstəliklərə qarşı profilaktik tədbirlər aparmaq məqsədilə 2740 nəfərdən qalın qan yaxması götürülərək parazitoloji müayinələr aparmaq məqsədilə laboratoriyada müayinə edilmişdir. Nəticəyə görə parazitar və maliyariya xəstəliyi aşkar olunmamışdır.

Malyariya xəstəliyinin profilaktikası məqsədilə iyul və avqust aylarında rayonun malyaregen əraziləri sayılan Kürd, Qaradeyn, Bayramkoxalı kəndlərində və Nic qəsəbəsində ağcaqanadlara qarşı dezinfeksiya tədbirləri aparılmışdır.

Bu il gigiyena və epidemiologiya mərkəzinə vətəndaşlar tərəfindən it, çaqqal, pişik, siçan dişləməsi barədə məlumat daxil olmuşdur. Həmin zərərçəkənlərə rayon mərkəzi xəstəxanasının poliklinikasında peyvəndləşmə işləri aparılmışdır. Cari ilin ötən dövründə GEM tərəfindən rayon polis şöbəsinin əməkdaşları və şəhər inzibati ərazi nümayəndəliyi ilə birlikdə küçə ticarətinin qarşısının alınması üçün bir neçə dəfə reydlər keçirilmiş, sanitar qaydalarını pozan fiziki şəxslər haqqında inzibati tədbirlər görülmüşdür. Bu reydlər zamanı şəhərdə ayrı-ayrı xidmət obyektlərinin fasad hissələrinin təmiri, təmizlik işlərinin aparılması, küçələrin sanitar-abadlıq vəziyyətinin daha da yaxşılaşdırılması üçün təklif və tapşırıqlar verilmiş, bəzi fiziki şəxslər cərimə olunmuşdur. Bundan əlavə Vəndam, Bum, Nic qəsəbələrində, Hacallı, Zarağan, Mıxlıqovaq kəndlərində də bələdiyyə rəhbərləri ilə birlikdə yoxlama reydlər keçirilmiş, müşahidə edilən nöqsanları aradan qaldırmaq üçün müvafiq tədbirlər görülmüşdür.

2013-cü ildə Qəbələdə fəaliyyət göstərən konserv, süd emalı və çörəkbişirmə zavodlarında və digər yeyinti məhsulları istehsalı müəssisələrində istehsal olunan məhsulların sertifikatlaşdırılması üçün sənədlər hazırlanaraq istehsal olunan məhsuldan nümunələrlə birlikdə gigiyenik sertifikat alınmaqdan ötrü respublika GEM-ə göndərilmişdir. Həmin istehsal müəssisələri bütün çeşiddə məhsulların keyfiyyəti haqqında gigiyenik sertifikatla təmin olunmuşdur.

Qeyd olunmalıdır ki, son zamanlar ərzaq ticarəti müəssisələrində istifadəyə yararlılıq müddəti bitmiş keyfiyyətsiz ərzaqlara olduqca az hallarda təsadüf olunur. Lakin bununla bərabər aparılan sanitariya müayinələri zamanı ərzaq mağazalarında istifadəyə yararlılıq müddəti bitmiş, normativ sənədlərə uyğun gəlməyən 9,9 kiloqram qənnadı məmulatı, 37 ədəd (0,5 və 1 litr) qablarda spirtsiz içkilər, 1,1 kiloqram qida əlavələri,16 kiloqram xörək duzu aşkar edilmiş, 70 kiloqram xörək duzu isə yodlaşdırılmadığı, kustar üsulu ilə emal olunduğu üçün satışdan çıxarılmışdır.

Cari ilin avqust ayında rayon ərazisində yerləşən otel, istirahət mərkəzi və pansionatların sanitar-gigiyenik vəziyyətini araşdırmaq məqsədi üçün rayon icra hakimiyyətinin nümayəndəsi ilə birlikdə həmin müəssisələrdə sanitar müayinələr aparılmışdır. Araşdırma zamanı Nohurqışlaq kənd ərazisində yerləşən «Yeni həyat», Qəbələ şəhərindəki «Çənlibel», Bunud kəndi ərazisində yerləşən «Sərin meşə» pansionatlarında həşəratlara qarşı lazımi mübarizə tədbirləri aparılmadığı və burada işləyən işçilərin dövrü tibbi müayinəyə tam cəlb olunmadığı aşkar edilmişdir. Sanitariya norma qaydalarının pozulduğu «Karvan» və «Yeni həyat» istirahət mərkəzlərinin icraçı direktorları GEM tərəfindən cərimə olunmuşlar. Sanitar tələblərinə cavab verməyən 4 obyektin fəaliyyəti müvəqqəti olaraq dayandırılmışdır.

**A. MƏMMƏDOV,**
**rayon gigiyena və epidemiologiya mərkəzinin direktor əvəzi.**